# PEDAQOJİ KOLLECDƏ TƏHSİLİN KEYFİYYƏTİNƏ ÖNƏM VERİLİR



***Müasir şəraitdə milli təhsilin qarşısında duran vəzifələrin miqyası çox genişdir, ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi təhsil islahatının həyata keçirilməsi sahəsində mühüm işlər görülür. Respublikamızın hər yerində olduğu kimi, Ağcabədi rayonunda da təhsil islahatının həyata keçirilməsi həm keyfiyyətcə, həm də kəmiyyətcə yeni məzmun daşıyır, milli təhsilin yüksək səviyyədə qurulması üçün mövcud imkanlardan səmərəli istifadə olunur.***

***Ağcabədi Pedaqoji Kollecinin direktoru Mirələm İbrahimli söhbətimizdə məhz bu məsələni xüsusi olaraq vurğuladı:***

—Ulu öndər Heydər Əliyev öyrədirdi ki, müstəqil Azərbaycanın hər bir gənci məktəbdə təhsil alaraq öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini yaxşı bilsin. Onun ölkəmizə rəhbərlik etdiyi bütün zamanlarda təhsilimiz daim inkişaf etmiş, təhsil islahatları sahəsində misli görünməmiş tarixi uğurlara imza atılmışdır. Ulu öndərimiz Heydər Əliyevin bu sözlərini heç vaxt unutmuram: “Mən Yer üzündə müəllimdən yüksək ad tanımıram”. Böyük hikmətdir və mən təkcə pedaqoji işçi kimi yox, bir vətəndaş kimi də düşünürəm ki, müəllim sənətinə bundan yaxşı qiymət yoxdur. Dövlətimizin, onun rəhbəri cənab İlham Əliyevin təhsilə, gənc nəslin təlim-tərbiyəsinə, pedaqoji kadrların hazırlanmasına necə böyük və tükənməz qayğı ilə yanaşdığını görəndə adamın gələcəyə inamı daha da artır. Son onilllikləri isə Azərbaycan təhsilinin intibahı dövrü adlandırmaq olar. Rayonumuzun təhsil işçiləri bu məsuliyyətli işi öz öhdələrinə götürmüşlər, təlim-tərbiyənin səviyyəsini yüksəltmək üçün tükənməz səy göstərirlər. Prezidentimiz cənab İlham Əliyevin milli təhsilimizə olan gündəlik qayğısı və dəstəyi onlara qol-qanad verir. Məhz ardıcıl dövlət qayğısı sayəsində yola saldığımız illərdə Azərbaycan təhsilinin yüksəlişi və çiçəklənməsi üçün çox böyük işlər görülmüşdür. Təhsil sahəsi Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən və məqsədlərindən biridir. Respublikamızın iqtisadi və sosial sahədə nailiyyətləri çoxaldıqca gənc nəslin təlim-tərbiyəsi sahəsində də uğurlar getdikcə artır, bu sahəyə dövlət qayğısı gücləndirilir.

M.İbrahimli daha sonra onu da qeyd etdi ki, Ağcabədi Pedaqoji Kollecində tədris prosesini müasir tələblər səviyyəsində qurmaq və onun keyfiyyətini yaxşılaşdırmaq istiqamətində məqsədyönlü tədbirlər görülür. Regionların sosial-iqtisadı inkişafına dair Dövlət proqramlarında irəli sürülmüş müddəaları əzmlə həyata keçirən insanlar son illərdə uğurlu nəticələrə nail olmuşlar. Hazırda təhsilimizin gələcəyi olan kadrların yetişdirilməsi kollecimizdə daha bacarıqlı müəllimlərin çalışması sayəsində həyata keçirilir.

Hazırda Ağcabədi Pedaqoji Kollecində 7 ixtisas üzrə 1528 nəfər tələbə müəllimlik peşəsinin incəliklərinə yiyələnir. Bu təhsil ocağı öz qabaqcıllığı ilə bölgədə uzun illərdir ki, fəaliyyət göstərir. Burada respublikanın rayonlarından gəlmiş 1500 gənc oğlan və qızlar təhsil alırlar. Kollecdə 20 fənn kabineti, bir o qədər auditoriya, 5 kompüter kabineti, 10 min nüsxəlik kitabxana, idman meydançası, 200 nəfərlik akt zalı, 150 nəfərlik bufet-yeməkxana, müasir yataqxana tələbələrin istifadəsindədir. Kollecimizin müəllimləri bir sıra beynəlxalq elmi məclislərdə iştirak və çıxış etmişlər. Son illərdə kollecin maddi-texniki bazası əvvəlki illərə nisbətən xeyli möhkəmləndirilmiş, geniş miqyasda təmir işləri aparılmışdır. Tədrisin keyfiyyəti əvvəlki illərə nisbətən xeyli yaxşılaşmış, bilik və idman yarışlarında mühüm nailiyyətlər qazanılmışdır. Tələbələr xüsusilə idmana böyük həvəs göstərir və məhəbbətlə idman oyunlarında iştirak edirlər. Təbiidir ki, rayonda keçirilmiş möhtəşəm məşəl estafeti bayramında 400-dən çox tələbəmiz fəallıq göstərmişdir.

Biz kollecdə olarkən tələbələrin yay imtahan sessiyasına hazırlaşdıqlarının şahidi olduq. Hazırda tələbə auditoriyalarında imtahanların hazırlığına başlanmışdır. Yay imtahan sessiyasında imtahanlar şəffaf və obyektiv keçiriləcək. Bunu kollecdə aparılan nizam-intizamın bərqərar olmasından aydın görmək olar.

İnanırıq ki, sabahın müəllimləri bu peşənin sirlərini daha yaxından mənimsəyəcək, hər bir tələbə doğma kollecdə tədrisi xoş arzularla başa vuracaqdır.

**Sabir MUSTAFAYEV,**
**“Respublika”.**